Nilufər ŞIXLI

# ADDIM

*Minaya düşərək şəhid olan bütün əsgərlərimizin əziz xatirəsinə ithaf edirəm.*



Nə baş verdiyini anladı. Elə bil ürəyini iynə dəlib keçdi, bir anlıq dayandı. Sağ ayağı sanki yerə dikildi. Yuxudan ayılmaq istəyən adam kimi başını silkələdi. Qəlbi durduğu yerdən yenidən döyünməyə başladı. Özünü toxtatmağa çalışdı. Əlindəki su qablarını ehmalca yerə qoyub belini dikəltdi. Ətrafı dinlədi. Səs-səmir yox idi.

Müharibənin üçüncü günündən cəbhəyə getmişdi. Zabit idi. Gözü nələr görmüşdü. Yaralananlar, qollarında can verənlər olmuşdu. Hönkürərək gözlərini bağladığı, qisasını almağa söz verdiyi neçə dostunu itirmişdi. Ölümün üstünə gedərək verdiyi sözü tutmuş, dəfələrlə əcələ dov gəlmişdi.

İndi düşməndən daha çox, özünə acıqlı idi. Yanılmaq, yenilmək olmazdı ona. Yolunu gözləyənlər vardı. O, evin tək kişisi, anasının, iki kiçik bacısının yeganə ümidi idi. Dünyanın görmədiyi, gözləmədiyi bu misilsiz savaşda öz gücündən daha çox, anasının dualarına və onu qoruyan ilahi bir qüvvənin varlığına inanmış, möcüzələrə şahid olmuşdu. Dava bitəndə mübarək qələbənin şəninə və şəhid yoldaşlarının xatirəsinə göyə atılan güllələrin səsi hələ də qulağından getməmişdi...

Amma indi... ətrafdakı bu səssizlik topların, pulemyotların səsindən daha pisdi. Savaşı, şəhid olmağı gözə alaraq gedən bütün əsgərlər kimi, o da qorxu hissinin nə olduğunu bilməsə də, bədənini soyuq tər basmışdı... İyirmi dəqiqə idi ayağını tərpətmədən dayanmışdı, amma ona elə gəlirdi ki, saatlar ötüb.



Haradansa sərt külək əsməyə başlamışdı. Küləyin ahəngsiz uğultusu səbrini kəsirdi. Bayaqkı səssizlikdən ötrü darıxdı. Dodaqlarını donduran, qarı gözlərinə dolduran külək düşmən kəsilmişdi sanki. Evləri, həyətləri yadına düşdü...

Yay ayıdır. Ağacların dibini belləyir, gülləri sulayır, həyət-bacanı sahmana salır. Bacıları süfrə açıb, onu səsləyirlər. Ən çox sevdiyi yeməklər var süfrədə: heyva yarpağına bükülmüş dolma, yanında da sərin dovğa. Əl-üzünü soyuq su ilə yuyur. Bacılarının başından öpüb süfrə arxasında oturur. Anaları əlindəki məcməyidə təndir çörəyi, pilləkənlərdən düşür...

Səntirləyib gözlərini açdı. Ürəyi yenə bayaqkı kimi çırpındı. Ayaq üstə yuxulamış və az qala yıxılmışdı. Soyuq külək, şaxta bədənini dondururdu. Sağ ayağını hiss etmirdi. Gözlərini bir neçə dəfə bərk-bərk yumub açdı, başını silkələdi, əllərini ovuşdurdu. Ətrafda kimsə görünmürdü. Yoldaşları olan yerdən çox uzaqlaşmışdı, çağırsa belə, rüzgarın vıyıltısından eşidən olmayacaqdı. Çarəsizcə gülümsündü. Keçən il bu zaman nə etdiyini, harada olduğunu yada salmağa çalışdı...

Bakıya getmişdi. Yeni ili uşaqlıq dostugildə keçirəcəkdi. Onlar bir neçə il idi ki, ailəlikcə paytaxta köçmüşdülər. Amma dostu hər yay kəndə nənəsigilə gələr və gənclər birlikdə zaman keçirərdilər. Qismətə bax. O vaxt heç ağlına da gəlməzdi ki, döyüş yoldaşı da olacaqlar, yaralı halda onu çiynində qərargahadək daşıyacaq, son arzusunu da yerinə yetirəcək; zabit papağını başına qoymaq istəyi əvvəllər bir dost şıltaqlığına bənzəsə də, həmin anda onu hönkür-hönkür ağlatmışdı.

Soyuq olsa da, papağı başından çıxardı. Qoxladı, lakin buz kəsən havadan başqa heç nə hiss etmədi. Papağı üzünə tutub uşaq kimi hönkürdü. Qorxmurdu, yox. Qəribsəmişdi. Bir ay öncə itirdiyi dostunun səsinə, dəstəyinə sanki illərdi həsrət idi. Onun zarafatını xatırladı: “Kənd havası səni qocalmağa qoymayacaq, – deyirdi. – Yanaşı duranda elə biləcəklər oğlumsan”. Qəribə idi, ikisi də qocalmayacaqdı. Onları hər zaman gənc olaraq xatırlayacaqdılar.

Anasının və bacılarının onun ölüm xəbərini necə qarşılayacaqlarını, ürəyi xəstə qadının, körpəcə qızların halının necə olacağını düşünüb kövrəldi. Göz yaşlarından utanıb başını göyə qaldırdı. Ona elə gəldi ki, durna qatarı görür. “Bu zaman durnamı olar?” – deyə düşünsə də, gözünü onlardan çəkə bilmədi. Qibtə etdi. Özündən ixtiyarsız qollarını qaldırdı. Quşlara qoşulub uçmaq istədi... lakin qəfil bir səsdən pərən-pərən oldu durnalar... Tutuldu göy üzü. Boşaldı yer üzü.

